**Birinci Bakı Türkoloji Qurultayının 100-cü ildönümünə ithafən**

**V GƏNC TÜRKOLOQLAR BEYNƏLXALQ KONFRANSI**

**13-16 May 2026-cı il**

**Türkistan / Qazaxıstan**

**Konfrans haqqında**

13–16 may 2026-cı il tarixlərində Türkistan şəhərində Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türk Universiteti, Ordu Universiteti və Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə Türk dünyasının dil, ədəbiyyat, incəsənət, tarix və mədəniyyət sahələrinin inkişafında dönüş nöqtəsinə çevrilmiş 1926-cı il Birinci Bakı Türkoloji Qurultayının 100 illik yubileyinə həsr olunan V Gənc Türkoloqlar Beynəlxalq Konfransı keçiriləcəkdir.

Konfransda beynəlxalq səviyyədə bakalavr və magistratura pilləsində təhsil alan tələbələr qədim türk dilindən müasir türk yazı dillərinə, qədim türk ədəbiyyatından müasir türk dünyası ədəbiyyatlarına, qədim türk tarixindən müasir türk dünyası tarixinə, eləcə də qədim türklərin folkloru, incəsənəti və mədəniyyətindən müasir türk dünyasının folkloru, incəsənəti və mədəniyyətinə qədər türkoloji elmin müxtəlif istiqamətlərini əhatə edən elmi məruzələrlə Türk Dünyasının Mənəvi Paytaxtı Türkistan şəhərində bir araya gələcəklər.

**Konfransın başlıca mövzuları:**

- 1926 Birinci Bakı Türkoloji Qurultayı
- Qədimi Türk yazı dilləri
- Modern Türk yazı dilləri
- Türk dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Qazax dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Azərbaycan dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Özbək dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Qırğız dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Türkmən dili, ədəbiyyatı, tarixi, incəsənəti və folkloru
- Türk dünyası ədəbiyyatı
- Türk dünyası folkloru
- Türk dünyası tarixi
- Türkologiya və rəqəmsal texnologiya
- Türkologiya və süni intellekt
- Türkologiya və Türk dövlətləri
- Türkologiya və beynəlxalq qurumlar
- XXI. əsrdə Türkologiya

13–16 may 2026-cı il tarixlərində Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türk Universitetində keçiriləcək konfransda sosial elmlər sahələrində təhsil alan bakalavr, magistratura və doktorantura pilləsi üzrə tələbələr şifahi və ya təqdimatlı məruzə ilə iştirak edə biləcəklər.

**Müraciət şərtləri**

Türkologiya / Türkşünaslıq, Türk dili və ədəbiyyatı, Qazax dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı, Özbək dili və ədəbiyyatı, Qırğız dili və ədəbiyyatı, Türkmən dili və ədəbiyyatı, Müasir türk ləhcələri və ədəbiyyatları, Dilçilik, Türk xalqşünaslığı, Xalqşünaslıq, Folklor, Türk dili və ədəbiyyatının tədrisi / müəllimliyi, Türk dilinin tədrisi, Tarix, Musiqi, Əl sənətləri, Təsviri incəsənət, İlahiyyat, Antropologiya, Dinlər tarixi, İncəsənət tarixi, Arxeologiya və türkologiya ilə bağlı digər sosial ixtisasların hər hansı biri üzrə bakalavr və ya magistratura, eləcə də doktorantura səviyyəsində qeydiyyatda olmaq tələb olunur.

13-16 Mayıs 2026 tarihinde Hoca Ahmet Yesevi Uluslararası Türk Kazak Üniversitesinde gerçekleştirilecek olan konferansa sosyal bilimler alanlarında öğrenim gören lisans, yüksek lisans ve doktora öğrencileri sözlü veya poster sunumla katılabileceklerdir.

**Vacib tarixlər:**

| | |
|---|---|
| Xülasə təqdim etmə tarixi: | **1 aprel 2026** |
| Qəbul edilmiş məruzələrin elan edilməsi | 6 aprel 2026 |
| Tam mətnlərin göndərilməsi üçün son tarix | 1 may 2026 |
| Konfrans proqramının elan edilməsi | 4 may 2026 |
| Konfrans | **13-16 may 2026** |
| Təkmilləşdirilmiş tam mətnlər üçün son tarix | 30 iyun 2026 |

**Əlaqə üçün:**

| | |
|---|---|
| Konfrans Veb Saytının Ünvanı | **http://turkoloji.odu.edu.tr/** |
| Müraciət üçün E-Mail Ünvanı | **oduturkoloji@gmail.com** |

**Yol xərci və yerləşmə**

Konfransda şifahi məruzə ilə iştirak edəcək tələbələrin yol xərcləri özləri tərəfindən qarşılanacaqdır.

Konfransda şifahi məruzə ilə iştirak edəcək tələbələrin yerləşməsi (qalması) Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin tələbə yataqxanaları və "Yesi" oteli tərəfindən (məhdud sayda), imkanlar daxilində ödənişsiz həyata keçiriləcəkdir. Bununla yanaşı, iştirakçılar istədikləri təqdirdə, Türkistan şəhərində yerləşən digər otelləri də (yerləşmə xərclərini özləri qarşılamaq şərtilə) seçə bilərlər.

**Məruzənin Tam Mətni Üçün Yazı Qaydaları**

- Məruzələrə görə bütün məsuliyyət müəllifə/müəlliflərə məxsusdur.
- Məruzənin tam mətni aşağıda qeyd olunan ölçülər nəzərə alınmaqla hazırlanmalıdır.
- Məruzə mətnləri "Microsoft Office Word" proqramında, "Times New Roman" şrifti ilə yazılmalıdır.
- Word səhifəsinin ölçüləri A4 (21x 29,7 sm) formatında seçilməli; yuxarı, aşağı, sağ və sol kənar boşluqları 3 sm olaraq tənzimlənməlidir.
- Yazı üslubundakı ardıcıllıq aşağıdakı kimi olmalıdır. Bütün mətndə paraqraf (abzas) arası məsafə əvvəl və sonra 6 nk, sətirlərarası məsafə isə 1,25 olaraq müəyyən edilməlidir.
- Məruzənin tam mətni, aşağıdakı format xüsusiyyətlərinə və yuxarıdakı maddələrə əməl edilməklə, ədəbiyyat siyahısı (istifad olunmuş mənbələr) və əlavələr daxil olmaqla 5000 sözü keçməməlidir.

**Formatın xüsusiyyətləri**

| | |
|---|---|
| **Başlıq** | 14 punkt, yalnız ilk hərflər böyük, qalın (bold), mərkəzdə |
| | Başlıqdan sonra üç sətir boşluq buraxılmalıdır. |
| **Müəllif(lər)in adı** | 11 punkt, yalnız ilk hərflər böyük, qalın (bold), mərkəzdə |
| | Müəllif(lər)in adından sonra bir sətir boşluq buraxılmalıdır. |
| **Bölmə (Fəsil) adı** | 12 punkt, yalnız ilk hərflər böyük, qalın (bold), mərkəzdə |
| | Qurumun adından sonra iki sətir boşluq buraxılmalıdır. |
| **Xülasə** | 11 punkt, iki tərəf üzrə düzləndirilmiş (justify) |
| **Açar sözlər** | 11 punkt, iki tərəf üzrə düzləndirilmiş (justify) |
| | *Açar sözlər* bölməsindən sonra iki sətir boşluq buraxılmalıdır. |
| **Əsas mətn** | 12 punkt, iki tərəf üzrə düzləndirilmiş (justify), abzas girintisi (0,5 sm), abzaslararası boşluq yoxdur |
| | Əsas mətn hissəsində işin xarakterindən asılı olaraq GİRİŞ, MƏLUMATLAR, MÜZAKİRƏLƏR, QİYMƏTLƏNDİRMƏLƏR, ŞƏRHLƏR, ANALİZLƏR, TÖHFƏLƏR, NƏTİCƏ və s. başlıqlardan istifadə olunmalıdır. |
| | Əsas mətn 1000 sözdən az, 4000 sözdən çox olmamalıdır. |
| | Əsas mətndən sonra iki sətir boşluq buraxılmalıdır. |
| **Ədəbiyyat siyahısı** | 9 punkt, iki tərəf üzrə düzləndirilmiş (justify), abzas girintisi yoxdur |

| | |
|---|---|
| | **ƏDƏBİYYAT SİYAHISI** başlığından istifadə edilməli və əsas şablon aşağıdakı kimi olmalıdır. Müəllifin eyni ildə bir neçə əsərinə istinad edildikdə a, b kimi indekslərdən istifadə edilə bilər: 2007a, 2007b.<br><br>**Kitab**<br><br>**Müəllif(lər)in soyadı, adının baş hərfi. (İl). Kitabın adı (italik). Nəşr yeri: Nəşriyyat.**<br><br>Caferoğlu, A. (1958). Türk Dili Tarihi. İstanbul: İ.Ü. Edebiyat Fakültesi Yayınları.<br><br>Eckmann, J. (1996). Harezm, Kıpçak ve Çağatay Türkçesi Üzerine Araştırmalar (Red. Osman Fikri Sertkaya). Ankara: Türk Dil Kurumu Yayınları.<br><br>Grønbech, K. (1995). Türkçenin Yapısı (Tərc. Mehmet Akalın). Ankara: Türk Dil Kurumu Yayınları.<br><br>**Məqalə / Məruzə**<br><br>**Müəllif(lər)in soyadı, adının baş hərfi. (İl). Məqalənin adı. Jurnalın adı (italik), Say: səhifə nömrələri.**<br><br>Korkmaz, Z. (1989). -ası/esi Gelecek Zaman İsim-Fiil (participium) Ekinin Yapısı Üzerine. TDAY-Belleten, 1968: 31–38.<br><br>Karahan, A. (1948). Fuzulî'nin Mektupları. İstanbul Üniversitesi Türk Dili ve Edebiyatı Dergisi, II/3–4: 245–266.<br><br>Yıldız, H. (2016). Türkçede kap kacak İkilemesi Üzerine. XI. Uluslararası Büyük Türk Dili Kurultayı (Budapeşte / 26–27 Eylül 2016) Bildiriler Kitabı. Ankara: Bilkent Üniversitesi Yayınları, 28–40.<br><br>**İnternet mənbəyi**<br><br>**Müəllif(lər)in soyadı, adının baş hərfi. (İl). Məqalənin adı. İnternet ünvanı (Müraciət tarixi)**<br><br>Ocak, M. E. (2016). Buzul Çağı Avcıları Avrupa Ormanlarını Tahrip Etmiş. http://www.bilimteknik.tubitak.gov.tr/makale/buzul-cagi-avcilari-avrupa-ormanlarini-tahrip-etmis<br>(18.01.2017) |